# Konsept olaraq tarixə yolculuq ideyası

- 1880-ci il Azərbaycanın ilk dəmir yolu xətti
- 1883-cü ildə Bakı–Yelizavetpol(Gəncə)–Tiflis magistral dəmir yolu
- 1884-cü ildə Bakıda “Tiflis vağzalı” istifadəyə verildi
- 1896-cı ildə Port-Petrovsk(Mahaçqala)–Dərbənd,
- 1897-ci ildə Bakı–Dərbənd dəmir yollarının inşasına icazə verildi.
- 1900-cü ildə Bakı–Biləcəri–Dərbənd–Port-Petrovsk(Mahaçqala) dəmir yolu inşa olundu
- 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyi elan olundu
- 1926-cı ildə Bakıda SSRİ-nin ilk elektrikləşdirilmiş dəmir yolu işə başladı. iyulun 6-da Azərbaycanda ilk elektrikləşdirilmiş dəmir yolu işə başladı
- 1941–1945-ci illərdə Azərbaycan dəmir yolları ilə 600 mindən artıq neft və neft məhsulları ilə dolu olan sistern
- 1955-ci ildə Azərbaycan dəmir yolu SSRİ Yollar Nazirliyinin tərkibində müstəqil dəmir yolu statusu aldı
- 1979-cu ildə Ağdam–Xankəndi dəmir yolu inşa olunub
- 1990-cı illərin əvvəlində Ermənistanın təcavüzü nəticəsində bu xəttin Ağdam, Əsgəran və Xankəndi stansiyaları işğal edildi
- 2009-cu ildə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti yaradıldı
- 2010-cu ildə “Azərbaycan Dəmir Yolları” QSC-nin nizamnaməsi və strukturu təsdiqləndi
- 2015-ci il sentyabrın 18-də isə “Azərbaycan Dəmir Yolları” QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılaraq müstəqil qurum kimi elan edildi. 2015-ci ilin sentyabrında yenidən qurulan Bakı-Sumqayıt dəmir yolu xətti ilə ADY ilk “Stadler” qatarını istifadəyə buraxıb.
- 2017-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu xətti istifadəyə verildi.
- 2020-ci ilin Vətən müharibəsi dövründə gücləndirilmiş iş rejimində işləyən “Azərbaycan Dəmir Yolları” QSC ölkənin ərazi bütövlüyünün bərpa edilməsində əhəmiyyətli rol oynayıb. 2020-ci ildə Abşeron dairəvi xətti tam istifadəyə verilib.

- Ekranda köhnə qatarın maşinist kabinəsi göstərilir. Maşinist kabinəsindən çöldə ağ-qara rəngli ərazi və dəmir yolu görsənir. Kontroller ilə qatarı hərəkətə gətirdikdə dəmir yolları bir-bir relslər kimi animasiya ilə düzülür. Ekranin üst hissəsində 1880 yazılır 3D ilə ekrandan keçir. Səsli olaraq “Azərbaycanda ilk dəmir yolu xətti çəkilir” cümləsini eşidirik. Dəmir yolunun yanında neft vaqonları yaxınlaşır. Qatarımız getdikcə uzaqdan Suraxanı stansiyasına yaxınlaşırıq.
- Qatar hərəkət edir yol boyu 1883 yazısını görürük və Yelizavetpol (Gəncə) yazısı ekrana yaxınlaşır. Arxasınca 1884 yazısı ilə Tiflis vağzalını görürük. Ekran boyu biz video görüntülər görürük. Görüntülər getdikcə səsli mətnlər eşidilir. Tarixi hadısələrin axarında video kadrlar göstərilir.
- 1900-cu il yazısı gəldikdə dəmir yolu iki ayrı xəttə ayrılacaq və bir tərəfdə “Dərbənd-Petrovsk” yazılı işarə göstəriləcək. Qatarımızın yanı ilə neft vaqonları gedəcək və məlumat olaraq tarixi məlumatlar göstəriləcək.
- 1918-ci ilin yazısı ilə 28 May tarixində ilk Dəmir Yolları Nazirliyi məlumatı deyiləcək və görüntülər ekrandan keçəcək.
- 1924-cü il ilə Bakıətrafı və Bakı tramvay xəttləri haqqda məlumatlar veriləcək və görüntülər gedəcək.
- 1926-cı il tarixində qatarımızın kabinəsi elektrik qatarı kabinəsinə dəyişəcək və dəmir yolu boyunca elektrik dirəkləri əmələ gələcək. Kadrlarımız rənglənməyə başlayacaq. Bununla bərabər elektrik dəmir yollarına aid video görüntü gələcək qarşımıza.
- 1941-45-ci illərdə idarə etdiyimiz qatarın yanında tank daşıyan vaqonları, nevt daşıyan vaqonlar görünür. Ekrana 600 mindən artıq neft sisterni və 700 min vaqon yük cəbhəyə gındərilib yazısı gəlir. “Lend-liz” siyasəti haqda məlumat görüntüləri gəlir ekranımıza.
- 1955-ci il ilə Azərbaycan Dəmir yolu SSRİ yollar nazirliyi tərkibində müstəqil dəmir yolu statusu alması və görüntüsü ekrana çıxır.

- 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu inşası göstəriləndə ümummilli lider Heydər Əliyevin bununla bağlı fotolarını gətiririk. Yol boyu şəkillər bir-bir yanımızdan keçir.
- Erməni işğalı zamanini göstərdiyimiz zaman atəş səsləri eşidilir və dağılmış dəmir yolları xəttləri yanıməzda əmələ gəlir. Qırılmış vaqonlar yanmış evlər və s. Göstərilir. Ağdam videoları ekranda əmələ gəlir.
- 2009-cu il artıq kadrlarımız tam rəngli və ətraf mühit yeni və gözəl yollar ilə. Vaqonlar yeni və kabinimiz də yenilənir. Daha müasir vaqonlara keçir.
- 2015-ci ili göstəririk və burada ADY QSC müstəqil qurum kimi elan edilir yazısı ekranın üst hissəsində əmələ gəlir.
- 2017-ci il gəldikdə yol boyu yeni işarələr əmələ gəlir. Bunlardan biri də Bakı-Tiflis-Qars. Şərq-Qərb nəqliyyat dəhlizi haqda məlumat göstərilir.
- 2020-ci il 44 gün davam edən Vətən müharibəsində böyük rol oynayan Azərbaycan Dəmir Yollarının fəaliyyətini göstərmək üçün qatarımızın hər iki tərəfində yeni dəmir yolları ayrılır və hər üç yolda yük daşıyan qatarları göstəririk. Vaqonların üzərində qənimət götürülən hərbi texnikaları yanımızdan keçərək gətirilməsini göstəririk. Ekranın üst hissəsində ADY işçilərinin rəhbər tutduqları şüarı göstəririk: Vaxtında cəbhəyə çatdırılan hər bir qatar düşmənə ağır zərbədir!
- 2020-ci ildə isə Bakı-Sumqayıt xəttində ilk Stadler qatarını göstəririk və bizim idarə etdiyimiz qatarın kabini Stadler kabininə dəyişir. Getdiyimiz yollarda Azərbaycan bölgələrinin adları olan çox sayda işarələr görürük. Bu Azərbaycan Dəmir Yollarının torpaqlarımızın hər bir yerinə gedəcəyinin işarələridir. Son şüar olaraq: Azərbaycanımızı birləşdiririk!

Ekran görüntüsü bu formada olacaq

